# Ağdaş düyüsü



## *İlk dəfə olaraq rayonda 2500 hektarda çəltik əkilməsi nəzərdə tutulmuşdur. Bu isə respublikada ən yüksək göstəricidir*

Ağdaş Rayon Kənd Təsərrüfatı İdarəsinin rəisi Elsevər Baxışov hara gedəcəyimiz barədə tərəddüd etmədi:

– Gürcüva kəndindən başlayaq, – dedi.

Əlbəttə, idarə rəisinin bu seçimi heç də təsadüfi deyildi. Məsələ burasındadır ki, Gürcüva rayonda ən çox çəltik əkən kəndlərdən biridir. Burada çəltikçiliyin tarixi qədimdir. Başqa sözlə desək, kənd sakinləri bu qiymətli bitkinin yetişdirilməsi üçün zəngin vərdiş və təcrübə qazanmışlar. Elə bunun nəticəsidir ki, burada çəltik əkini sahələri ildən-ilə artırılır.

Gürcüvada tanış olduğumuz ilk fermer Məhəmməd Şirinzadə oldu. Sözün əsl mənasında, torpaq adamıdır. Artıq neçə ildir ki, rayon üzrə yüksək məhsuldarlığa nail olur. Özü də təkcə çəltikçilikdə yox, başqa bitkiçilik məhsulları sahəsində də göstəriciləri yüksəkdir. Özü bu barədə danışarkən dedi:



–Ötən il 19 hektarda çəltik əkmişdik. Cari ildə isə bu rəqəmi 60 hektara çatdırmışıq. Onu da deyim ki, artım heç də başqa bitkilərin əkin sahələrinin azalması hesabına olmamışdır. Biz, sadəcə olaraq, əkin sahələrini genişləndirmişik. Məhsuldarlığı ötən illərlə müqayisədə xeyli artırmağı da nəzərdə tutmuşuq. Bunun üçün tələb olunan bütün aqrotexniki tədbirləri vaxtında və keyfiyyətlə aparırıq.

Malay kənd sakini Əli Musayev də çəltik əkini sahələrini xeyli artıraraq 35 hektara çatdırıb. Söhbət zamanı qabaqcıl fermer son illər çəltikçiliyə olan maraqdan, bu qiymətli bitkinin üstünlüklərindən həvəslə danışdı:

–Ağdaşda çəltikçiliyin tarixi çox qədimdir. Elə bir kənd olmaz ki, orada, az da olsa, çəltik əkilməsin. Son illər isə bu sahəyə maraq ikiqat artmışdır. Ən əvvəl ona görə ki, bizim camaatda bu qiymətli bitkiyə həvəs böyükdür. Hava, torpaq və iqlim şəraiti çox əlverişlidir. Digər tərəfdən, düyünün bazarı genişdir. Həm ölkə daxilində, həm də xaricdə ona maraq böyükdür. Daha dəqiq desək, iqtisadi baxımdan kənd adamı üçün çox əlverişlidir. Əgər yaxşı becərilərsə hər hektar çəltik sahəsindən 60 sentner məhsul götürmək mümkündür. Bazarda isə düyünün hər kiloqramı, ən azı, 1 manat, 1 manat 50 qəpiyə satılır. Son vaxtlar çəltikçiliyə olan böyük həvəs və marağın kökündə bax, bu amillər dayanır.

Yolumuz Harutlu kəndinədir. Bu kəndin fermerləri təkcə əkin sahələrini genişləndirməklə kifayətlənmirlər. Burada artıq neçə ildir ki, dalbadal sahələrdən yüksək məhsuldarlıq əldə edilir. Belə fermerlərdən biri də Həsrət Cavadovdur. Onu da öyrəndik ki, bu qabaqcıl təsərrüfat adamı çəltik əkinini rayonda birincilər sırasında başa vurub:

– Çəltikçilik digər kənd təsərrüfatı bitkilərinə nisbətən çox zəhmət tələb edən bir sahədir. Əkindən tutmuş biçinə qədər bütün tədbirlər əllə görülür. Üstəlik, quru torpaqda yox, sulu sahələrdə. Bu, əlbəttə, böyük zəhmət, həm də səy və təcrübə tələb edir. İqtisadi cəhətdən gəlirli və əlverişli olması isə göz qabağındadır. Təsadüfi deyildir ki, bu qiymətli bitkinin əkin sahələrini ildən-ilə genişləndiririk. Məsələn, biz ötən il 10 hektarda məhsul yetişdirmişdik. Bu il isə əkin sahələrini 22 hektara çatdırmışıq. Mütəxəssislərin və təcrübəli çəltik ustalarının dediklərinə görə, bu il sahələrdən bol məhsul əldə ediləcəkdir.

Biz rayonun Xınaxlı, Ağzıbir, Ərəbocaq və başqa kəndlərində də olduq. Hər yerdə də çəltik əkini sahələrinin əvvəlki illərlə müqayisədə xeyli artırıldığını gördük. Rayon kənd təsərrüfatı idarəsinin rəisi Elsevər Baxışov bu marağın səbəbləri barədə həvəslə danışdı:

–Tarixən, Ağdaş düyüsünün xüsusi dadı və ətri hamıya yaxşı məlumdur. Ancaq, təəssüf ki, əvvəlki illərdə bu qiymətli bitkiyə maraq azalmışdı. İndi isə gördüyünüz kimi, kənd adamları üstünlüyü daha çox çəltikçiliyə verirlər. Bu, əlbəttə, ilk növbədə ölkə Prezidenti İlham Əliyevin kənd təsərrüfatının, o cümlədən çəltikçiliyin inkişafına göstərdiyi diqqət və qayğının nəticəsidir. Məsələn, biz ötən il 1310 hektarda çəltik əkmişdik. Sahələrdən 1315 ton məhsul götürmüşdük.



Builki hədəfimiz isə belədir: rayon üzrə 2500 hektarda çəltik əkmək. İndiyə kimi 1900 hektarda əkin aparılmışdır. İşlərin gedişi onu göstərir ki, yaxın günlərdə kampaniyanı başa çatdıracağıq. Onu da bildirim ki, təcrübəli çəltikçilərin dediklərinə görə, bu il, sözün əsl mənasında, çəltik ilidir. Deməli, məhsuldarlıq da yüksək olacaqdır. Mən fürsətdən istifadə edərək Ağdaşın çoxminli kənd əməkçiləri adından ölkə Prezidentinə göstərdiyi diqqət və qayğıya görə sonsuz minnətdarlığımızı bildirirəm.

Yeri gəlmişkən, onu da deyək ki, cari ildə Ağdaş rayonunda kənd təsərrüfatının digər sahələrində də işlər yaxşı təşkil edilmişdir. Belə ki, 2017-ci ilin məhsulu üçün 12 min 312 hektarda taxıl, 787 hektarda pambıq, 315 hektarda tərəvəz, 164 hektarda rayon üçün yeni məhsul olan vələmir, 203 hektarda kartof, 1243 hektarda yonca və s. əkilmişdir. Bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 734 hektar və ya 37 faiz çoxdur. Hazırda rayonda qaramalın sayı 78656 baş, qoyun-keçilərin sayı isə 95737 başdır. Ötən aylar ərzində diri çəkidə ət istehsalı 2558,3 ton, süd istehsalı 9917,2 ton, yumurta istehsalı 1 milyon 801 min ədəd olmuşdur.

Son illər ənənəvi sahələr olan pambıqçılığa və baramaçılığa maraq daha da artmış, bu sahələrdə ciddi uğurlar əldə edilmişdir. Qarşıya çıxan problemlərin öyrənilməsi və operativ aradan qaldırılması məqsədilə rayon icra hakimiyyətinin və kənd təsərrüfatı idarəsinin məsul işçilərindən ibarət xüsusi qərargah yaradılmışdır. Qərargah üzvlərinin iştirakı ilə görülmüş işlərə və qarşıda duran vəzifələrə dair gündəlik iclas keçirilir, lazımi tapşırıq və tövsiyələr verilir. Rayon üzrə 77 fermerlə 3000 hektarda pambıq əkilməsi barədə müqavilə bağlanmışdır. Çiyid səpini qısa müddətdə və yüksək aqrotexniki qaydada başa çatdırılmışdır. Hazırda becərmə işləri davam etdirilir.

Ağdaş Suvarma Sistemləri və Pirəzə Mexaniki Suvarma idarələri pambıq əkilən sahələrin su təminatı və melorativ vəziyyətini öyrənərək suvarma və kollektor-drenaj şəbəkələrini lildən təmizləmişdir. Ehtiyac olan yerlərdə yeni drenaj və suvarma kanalları çəkilmiş, elektrik nasos stansiyaları və digər hidrotexniki qurğular saz vəziyyətə gətirilmişdir. Qurğuların fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi üçün rayon elektrik şəbəkəsi qabaqlayıcı tədbirlər görmüşdür.

Fermerlərin becərmə texnikasına və digər avadanlıqlara olan tələbatı tam ödənilmişdir. Pambıqçılıq sahəsində kadr çatışmazlığı probleminin aradan qaldırılması məqsədilə bu sahədə peşəkar, xüsusən də aqromühəndis və aqronom ixtisaslı kadrlar seçilərək müvafiq işlərə cəlb olunmuşlar. Yeni kadrların müəyyənləşdirilməsi istiqamətində tədbirlər davam etdirilir. Ümumiyyətlə, rayonda əkinə yararlı 15800 hektar münbit torpaq sahələrinin suvarılması məqsədilə Respublika Melorasiya və Su Təsərrüfatı ASC ilə müqavilə bağlanmışdır. Sahələrə ilkin baxış keçirilmiş, ərazinin 4300 hektar, 7000 hektar və 4500 hektar olmaqla üç hissə üzrə layihələndirilməsi qərara alınmışdır. Artıq 4300 hektar sahədə layihə işləri başa çatdırılmışdır. Ərazinin digər hissələrinin layihə-smeta sənədləri də hazırdır.



Baramaçılığın inkişafı üçün rayonda Çin Xalq Respublikasından gətirilmiş 30 min ədəd, daxili imkanlar hesabına isə 35 min ədəd yerli tut tingi əkilmişdir. Sahələrdə 98 faiz bitiş alınmışdır. 2017-ci ildə rayon üzrə 5 ton barama əldə olunması nəzərdə tutulmuşdur.

Göründüyü kimi, Ağdaşda cari ili kənd təsərrüfatı sahəsində əsl dönüşə çevirmək üçün bütün qüvvə və səylər hərəkətə gətirilmiş, əlavə imkan və ehtiyat mənbələri üzə çıxarılmış, intizam və tələbkarlıq artırılmışdır. Barlı-bəhrəli bağlardan ilk xoş müjdələr gəlir–artıq bir neçə gündür ki, məhsul yığımına başlanılmışdır. Bağbanlar deyirlər ki, bu il əsl meyvə ilidir. Növbə baramaçıların, taxılçıların, pambıqçıların, çəltikçilərindir...

Bərəkətli olsun, əkinçi qardaş...

***Ziyəddin SULTANOV,***
***"Xalq qəzeti"***